# No. 51962*

## Turkey and Azerbaijan

**Memorandum of Understanding between the Government of the Republic of Turkey and the Government of the Republic of Azerbaijan concerning the development of a standalone pipeline for the transportation of natural gas originating and transiting from the Republic of Azerbaijan across the territory of the Republic of Turkey. Ankara, 24 December 2011**

**Entry into force:** *19 April 2013 by notification, in accordance with the provisions of the said memorandum*

**Authentic texts:** *Azerbaijani, English and Turkish*

**Registration with the Secretariat of the United Nations:** *Turkey, 26 June 2014*

*No UNTS volume number has yet been determined for this record. The Text(s) reproduced below, if attached, are the authentic texts of the agreement /action attachment as submitted for registration and publication to the Secretariat. For ease of reference they were sequentially paginated. Translations, if attached, are not final and are provided for information only.*

---

## Turquie et Azerbaïdjan

**Mémorandum d'accord entre le Gouvernement de la République turque et le Gouvernement de la République d'Azerbaïdjan relatif au développement d'un pipeline autonome pour le transport de gaz naturel provenant et transitant de la République d'Azerbaïdjan sur le territoire de la République turque. Ankara, 24 décembre 2011**

**Entrée en vigueur :** *19 avril 2013 par notification, conformément aux dispositions dudit mémorandum*

**Textes authentiques :** *azerbaïdjanais, anglais et turc*

**Enregistrement auprès du Secrétariat des Nations Unies :** *Turquie, 26 juin 2014*

*Le numéro de volume RTNU n'a pas encore été établi pour ce dossier. Les textes reproduits ci-dessous, s'ils sont disponibles, sont les textes authentiques de l'accord/pièce jointe d'action tel que soumises pour l'enregistrement et publication au Secrétariat. Pour référence, ils ont été présentés sous forme de la pagination consécutive. Les traductions, s'ils sont inclus, ne sont pas en form finale et sont fournies uniquement à titre d'information.*

[ AZERBAIJANI TEXT – TEXTE AZERBAÏDJANAIS ]

# AZƏRBAYCAN RESPUBLİKASINDAN GƏLƏN TƏBİİ QAZIN TÜRKİYƏ RESPUBLİKASININ ƏRAZİSİ VASİTƏSİ İLƏ TRANZİTİ HAQQINDA VƏ TƏBİİ QAZIN TÜRKIYƏ RESPUBLIKASININ ƏRAZISINDƏN NƏQL EDILMƏSI ÜÇÜN MÜSTƏQIL BORU KƏMƏRININ INŞASINA DAIR TÜRKİYƏ RESPUBLİKASININ HÖKUMƏTİ VƏ AZƏRBAYCAN RESPUBLİKASININ HÖKUMƏTİ ARASINDA ANLAŞMA MEMORANDUMU

Hazırkı Anlaşma Memorandumu (bundan sonra "AM") 2011-ci ilin 24 dekabr tarixində

**Türkiyə Respublikasının Hökuməti**; və
**Azərbaycan Respublikasının Hökuməti** tərəfindən və arasında bağlanmışdır.

Türkiyə Respublikasının Hökuməti və Azərbaycan Respublikasının Hökuməti kontekstdən asılı olaraq ayrı ayrılıqda "Tərəf", birlikdə isə "Tərəflər" adlandırıla bilərlər.

NƏZƏRƏ ALARAQ Kİ, Azərbaycan Respublikasından gələn təbii qazın Türkiyə Respublikasının ərazisi vasitəsi ilə tranziti haqqında və Təbii qazın Türkiyə Respublikasının ərazisindən Avropa İttifaqına və Avropanın digər ölkələrinə və Türkiyə respublikasındakı qonşu dövlətlərə nəql edilməsinə dəstək göstərmək üçün 25 oktyabr 2011-ci il tarixində Azərbaycan Respublikası və Türkiyə Respublikası Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Təbii qazın Türkiyə Respublikasına satışı və Azərbaycan Respublikasından gələn təbii qazın Türkiyə Respublikasının ərazisi vasitəsi ilə tranziti haqqında və Təbii qazın Türkiyə Respublikasının ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair Saziş (bundan sonra "HAS") imzalanmışdır;

NƏZƏRƏ ALARAQ Kİ, Tərəflər yeni müstəqil boru kəmərinin Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökumətinin ilkin olaraq təyin etdiyi şirkətlərdən ibarət birgə konsorsium vasitəsi ilə inşasını və sonrakı istismarını nəzərdə tutan bir layihəyə təminat vermək üçün (HAS-da qeyd edildiyi kimi) "Müstəqil Boru Kəməri Layihəsinin" inşasına üstünlük verməyə razılaşırlar;

NƏZƏRƏ ALARAQ Kİ, Azərbaycan Tərəfi ARDNŞ-ni gələcəkdə konsorsiuma üçüncü tərəfləri təyin etmək səlahiyyəti ilə Müstəqil Boru Kəməri Layihəsinə öz istirakçısı

qismində təyin etmişdir və Türkiyə Tərəfi gələcəkdə konsorsiuma üçüncü tərəfləri təyin etmək səlahiyyəti ilə (ilkin olaraq BOTAŞ və/və ya TPAO şirkətlərini, bundan sonra "Türkiyəli İştirakçı(lar)") öz iştirakçılarını təyin edəcəkdir;

YUXARIDA GÖSTƏRİLƏNLƏRİ NƏZƏRƏ ALARAQ, Tərəflər Müstəqil Boru Kəməri Layihəsinin (bundan sonra "Layihənin") dizaynını, tikintisini ve sonrakı istismarını təmin etmək üçün həyata keçirilməli işə rəhbərlik etmək üçün aşağıdakı şərtlərlə razılaşırlar:

1. Konsorsiumun Yaradılması

1.1. Hökumətlərarası Sazişin Maddə 5 (b) müddəalarına uyğun olaraq ARDNŞ və Türkiyəli İştirakçı(lar) aşağıdakı 1.4 Bəndində qeyd olunan vaxt ərzində ARDNŞ-nin rəhbərlik edəcəyi konsorsium (bundan sonra Layihə üzrə Konsorsium) yaradacaqlar.

1.2. Layihə üzrə Konsorsium aşağıdakı iştirak payları ilə yaradılacaqdır:

ARDNŞ - 80% (səksən faiz)
Türkiyəli İştirakçı(lar) - 20% (iyirmi faiz).

1.3. Səhmdarların yekun strukturu Layihə üzrə Konsorsiumun yaradılması zamanı müəyyən ediləcəkdir.Layihə üzrə Konsorsiumda hər hansı yeni iştirakçıya verilən pay ARDNŞ-nin yuxarıdakı 1.2 Bəndində göstərilən iştirak payından çıxılacaqdır.

1.4. Layihə üzrə Konsorsiumun təsis edilməsi 2012-ci ilin 30 iyun tarixinədək tamamlanacaqdır. Tərəflər bir-birini müntəzəm olaraq Layihə üzrə Konsorsiumun yaradılması ilə bağlı işlərin gedişatı barədə məlumatlandıracaqlar və yeni üzvlər Tərəflərin milli maraqlarına təhlükə yaratdığı halda Tərəflər yeni üzvlərin Layihə üzrə Konsorsiuma daxil olmasına dair rədd cavabı verə bilərlər.

1.5. Texniki-iqtisadi əsaslandırma və digər əlaqədar işlər Türkiyə tərəfinin dəstəyi ilə ARDNŞ tərəfindən aparılmalıdır. Texniki-iqtisadi əsaslandırma və digər əlaqədar işlərlə bağlı xərclər ARDNŞ tərəfindən çəkiləcəkdir.

2. Layihənin Keçirtmə Qabiliyyəti və Gücü

2.1. Layihə üzrə minimal illik keçirmə qabiliyyəti on altı (16) milyard kubmetr təşkil etməli və gələcəkdə Azərbaycan Respublikasından gələcək və onun ərazisindən nəql ediləcək təbii qaz həcmlərini yerləşdirmək üçün keçirmə qabiliyyətini artırmaq imkanına malik olmalıdır.

2.2. Layihəyə sərmayələrin qoyuluşunu təmin etmək üçün ARDNŞ potensial ixracatçılarla uzun müddətli keçirtmə haqqında razılaşmaları bağlamağı öhdəsinə götürəcək. Türkiyə Tərəfi bu cür keçirtmə haqqında razılaşmalar barəsində müntəzəm olaraq məlumatlandırılmalıdır.

3. Digər Müddəalar

3.1. Tərəflərin hər biri qarşı Tərəfə hazırkı Anlaşma Memorandumunun tam yerinə yetirilməsinə zəmanət verir.

3.2. Hazırkı Anlaşma Memorandumuna Tərəflərin qarşılıqlı yazılı razılığı əsasında istənilən zaman düzəliş edilə bilər. Düzəlişlər hazırkı Anlaşma Memorandumunun 4.1 Bəndində müəyyən edilmiş eyni hüquqi prosedura müvafiq olaraq qüvvəyə minəcəkdir.

4. Qüvvəyə Minmə və Qüvvədə Olma Müddəti

4.1. Hazırkı Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün tələb olunan milli daxili hüquqi proseduralar tamamlandıqdan sonra diplomatik kanallar vasitəsilə Tərəflərin son yazılı bildiriş alması tarixindən etibarən qüvvəyə minməlidir.

4.2. Hazırkı Anlaşma Memorandumu altı (6) ay müddətində qüvvədə qalır və onun müddətinin bitməsinə bir (1) ay qalmış Tərəflərdən biri digər Tərəfi Anlaşma Memorandumuna xitam vermək niyyəti barəsində diplomatik kanallar vasitəsilə yazılı surətdə xəbərdar etməsə, o, sonrakı altı (6) aylıq müddətlərə avtomatik olaraq uzadılmış hesab olunur.

4.3. Tərəflərin yuxarıda adı çəkilən müddət ərzində Layihə Konsorsiumunu yaratmadığı və ya Qarşılıqlı Anlaşma haqda hazırkı Memorandumun (QAM) müddətinin uzadılması haqda razılığa gələ bilmədiyi təqdirdə, hazırkı QAM qüvvəsini itirməli və Tərəflər hazırkı sənəd çərçivəsində nəzərdə tutulan öhdəliklərdən azad olunmalıdır.

Hər bir mətn eyni qüvvəyə malik olmaqla Türk, Azərbaycan və İngilis dillərində tərtib edilmiş və 24 dekabr 2011-ci il tarixində Ankarada iki (2) əsl nüsxədə imzalanmışdır. Sənədin təfsiri ilə bağlı ziddiyyət yarandığı halda İngilis dilindəki mətnə üstünlük veriləcəkdir.

**Türkiyə Respublikasının Hökuməti adından**

**cənab Taner YILDIZ**
**Enerji və Təbii Sərvətlər Naziri**

**Azərbaycan Respublikasının Hökuməti adından**

**cənab Natıq ƏLİYEV**
**Sənaye və Energetika Naziri**